# Sumqayıtda 12 illik ümumi təhsilə keçidlə bağlı "dəyirmi masa" keçirilib

Martın 15-də Sumqayıt Şəhər Təhsil Şöbəsinin akt zalında Təhsil Nazirliyinin nümayəndələri, Sumqayıt Şəhər Təhsil Şöbəsinin rəhbərliyi və əməkdaşları, şəhərin orta ümumtəhsil məktəblərinin direktorları, müəllimlər və valideynlərin iştirakı ilə 12 illik ümumi təhsilə keçidlə bağlı "dəyirmi masa" keçirildi.

"Dəyirmi masa"nı giriş sözü ilə açan Təhsil Nazirliyinin aparat rəhbərinin müavini Fərzəli Qədirov 12 illik ümumi təhsilin üstünlükləri, bu sahədə dünya təcrübəsi, prosesə hazırlıqla bağlı atılacaq zəruri addımlar, ümumi təhsilin yeni modelinə keçidlə bağlı əsas hədəflər barədə məlumat verdi. F.Qədirov qeyd etdi ki, "dəyirmi masa"nın keçirilməsində əsas məqsəd məsələ ilə bağlı təhsil işçilərinin münasibətlərini öyrənmək, irəli sürülən təklifləri Təhsil Nazirliyi rəhbərliyinə təqdim etməkdən ibarətdir.

Tədbirdə çıxış edən Təhsil Nazirliyinin şöbə müdiri Aydın Əhmədov məsələnin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda əsas strateji hədəflərdən biri olduğunu bildirib. 12 illik təhsilin əhəmiyyəti barədə danışan A.Əhmədov qeyd edib ki, yeni təhsil sisteminə keçid ölkədə ümumi təhsilin müddətinin mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılmasına imkan verəcək. Slaydlar vasitəsi ilə 12 illik ümumi təhsillə bağlı təqdimat edən A.Əhmədov müxtəlif ölkələrin təcrübəsindən nümunələr göstərib. Hazırda dünyanın 170-dən çox ölkəsində 12 illik təhsil sisteminin tətbiq edildiyini, 125 ölkədə isə ibtidai təhsil səviyyəsinin 6 il olduğunu iclas iştirakçılarının nəzərinə çatdırıb.



Şöbə müdiri daha sonra iclas iştirakçılarını 12 illik təhsildə təhsil səviyyələrinin təklif olunan variantları ilə tanış edib.

Çıxış edənlər 12 illik ümumi təhsilə keçidlə bağlı XXI əsrin tələbləri və əmək bazarının xüsusiyyətləri nəzərə alınmaqla məzmunun və tədris yükünün optimal müəyyənləşdirilməsi, tam orta təhsil səviyyəsində təhsilin təmayüllər üzrə təşkili, peşə təhsili imkanlarının artırılması zərurəti, məktəbəhazırlıq mərhələsi də nəzərə alınmaqla ümumi təhsilin mümkün modellərinə dair təkliflər səsləndiriblər.

**Niyazi RƏHİMOV,**
*"Azərbaycan müəllimi"*